# Müasir Azərbaycan dilinin passiv lüğət fondundakı bəzi söz qrupları haqqında

**Məmmədova Mələk Hidayət qızı**
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
27elka77@mail.ru · https://orcid.org/0000-0002-8037-9668

FOR CITATION
Məmmədova M.H. Müasir Azərbaycan dilinin passiv lüğət fondundakı bəzi söz qrupları haqqında // Modern Science, Technology and Innovation: Proceedings of the International Scientific and Practical Conference (ZFTI–2026, 5 November 2026). – 2026. – P. 100–103. – https://doi.org/10.66073/ReFocus-Conf/051118
QR code — link to the DOI page

XÜLASƏ

Dilin lüğət tərkibinin əlavə hissəsinə daxil olan, ədəbi dildən və bir-birindən fərqlənən müəyyən bir ərazinin yerli danışığı hesab edilən dialekt sözlərinin öyrənilməsinin mühüm nəzəri və əməli əhəmiyyəti vardır. Dildə mövcud olan dialekt sözlərinin öyrənilməsi bu və ya digər dilin tarixini araşdırmaq üçün qiymətli material verir. Həmçinin, dialekt sözləri vasitəsilə ədəbi dilin lüğət tərkibi zənginləşdirilir.

Bu söz qruplarının öyrənilməsinə XX əsrin əvvəllərindən başlanılmışdır. Daha sonralar da bu istifadə araşdırmalar aparılmış və müasir dövrümüzə qədər davam etmişdir. Bu sahədə alimlər yetişmişdir.

Qeyri-ədəbi dil ünsürləri hesab edilən dialektizmlər müxtəlif növlərə bölünür. Fonetik dialektizmlər, qrammatik dialektizmlər, lüğəvi dialektizmlər.

Dialekt sözlərinin öz xüsusiyyətini tədricən itirməsi onların bu gün tədqiqata cəlb olunmasını aktuallaşdırır. Belə ki, şivələrlə ədəbi dil arasında həm fonetik, həm leksik, həm də qrammatik fərqlərin getdikcə azalması onların öyrənilməsində çətinlik yaradır. Bu baxımdan yanaşdıqda dialektlərin öyrənilməsi, onların toplanması Azərbaycan dilçiliyinin mühüm məsələlərindən biridir. Bu son illərdə bu sahədə qiymətli tədqiqat işləri aparılmış və maraqlı faktlar əldə edilmişdir.

Təqdim olunan bu məqalə də aparılan kiçik bir araşdırmanın nəticəsi kimi yaranmışdır.

Məlumdur ki, folklor nümunələri bir çox arxaik sözləri, o cümlədən dialekt sözlərini özündə əks etdirir. Bu məqsədlə Azərbaycan nağıllarının dilində işlənmiş dialekt sözləri tədqiqata cəlb edilmiş və nəticədə müəyyən qədər məlumatlar və faktlar toplanmışdır.

Təqdim etdiyimiz məqalədə fonetik dialektizmlər tədqiqata cəlb olunmuş və nümunələr üzərində təhlil və izahlar verilmişdir.

**Açar sözlər:** lüğət tərkibi, söz qrupları, Azərbaycan dilçiliyi, dialekt sözləri

ABSTRACT

**About some word groups in the passive vocabulary of the modern Azerbaijani language**

*Mammadova Melek Hidayat gizi is a doctor of philosophy in philology, associate professor, Azerbaijan State Pedagogical University*

The study of dialect words, which are included in the additional part of the vocabulary of the language and are considered to be the local speech of a certain area, different from the literary language and from each other, has an important theoretical and practical significance. The study of dialect words

present in a language provides valuable material for researching the history of this or that language. Also, the vocabulary of the literary language is enriched through dialect words.

The study of these word groups began at the beginning of the 20th century. Later, this use was researched and continued until our modern times. Scientists have grown up in this field.

Dialectisms, which are considered non-literary language elements, are divided into different types. Phonetic dialectisms, grammatical dialectisms, lexical dialectisms.

The gradual loss of dialect words makes their involvement in research relevant today. Thus, the gradual reduction of phonetic, lexical, and grammatical differences between dialects and literary language creates difficulties in their study. From this point of view, the study of dialects and their collection is one of the most important issues of Azerbaijani linguistics. In recent years, valuable research work has been carried out in this field and interesting facts have been obtained.

This presented article is the result of a small study.

It is known that folklore samples contain many archaic words, including dialect words. For this purpose, the dialect words used in the language of Azerbaijani fairy tales were involved in the research, and as a result, a certain amount of information and facts were collected.

In the article we have presented, phonetic dialectisms have been involved in research and analysis and explanations have been given on the examples.

**Keywords:** vocabulary composition, word groups, Azerbaijani linguistics, dialect words



Müstəqillik dövründə folklor nümunələrinin leksik-qrammatik xüsusiyyətlərini araşdırmaq, onun spesifik bədii ifadə vasitələrini müəyyənləşdirmək, habelə folklor janrlarının mənsub olduğu xalqın ədəbi dilinin inkişafındakı rolunu dilçilik baxımından tədqiq etmək böyük əhəmiyyətə malikdir.

Məhz buna görədir ki, son zamanlar Azərbaycan folklor nümunələri üzərində tədqiqat işlərinin aparılmasına xüsusi fikir verilir.

Bu baxımdan Azərbaycan nağıllarının dilində işlənən dialektlərin öyrənilməsi də dilçiliyimiz üçün çox faydalıdır.

Dialektizm dedikdə bədii əsərlərin dilində işlənən müəyyən dialekt və şivə qruplarına məxsus olan söz və ifadələr nəzərdə tutulur. Dialektizmlər leksik vahidlərlə ifadə olunduğu kimi, dialekt və şivələrimizə məxsus olan bəzi fonetik və qrammatik xüsusiyyətləri də özündə əks etdirir. Bu və ya digər dialekt və şivə qrupu üçün səciyyəvi olan belə qeyri-ədəbi dil ünsürləri yalnız o zaman dialektizm kimi meydana çıxır ki, onlar bədii əsərlərin dilində və yaxud da ədəbi-bədii dil əsasında qurulmuş nitqdə işlədilmiş olsun.

M.Adilov dialektizmlərin bu cəhətini nəzərə alaraq çox doğru olaraq göstərir ki, dialektizmlərin yeri məhz bədii üslubdur. Bu qəbildən olan sözlər ancaq bədii üslubda özünə yer tapa bilər. Digər tərəfdən dialektizm anlayışı ancaq ədəbi dil ilə müqayisədə özünü doğruldur (2, s. 167).

Yuxarıda deyilənləri folklorun epik növünə daxil olan nağıllara da aid etmək olar. Çünki nağılların özü də xalq yaradıcılığının bədii formasıdır, dialekt və şivələrə aid olan sözlər burada da öz əksini tapır.

Mövcud ənənəyə uyğun olaraq, nağılların dilində işlənən dialektizmləri üç qrupa ayırmaq olar: 1) fonetik dialektizmlər; 2) morfoloji dialektizmlər; 3) leksik dialektizmlər.

## FONETİK DİALEKTİZMLƏR

Şifahi xalq ədəbiyyatının başqa növlərində olduğu kimi, Azərbaycan nağıllarında da fonetik dialektizmlər müşahidə edilir.

Ə.Dəmirçizadə fonetik dialektizmlərdən bəhs edərək göstərir ki, «Fonetik dialektizmlər şivəyə məxsus fonetik dəyişikliyə uğradılmış sözlərlə, şəkilçilərlə və bəzi səslənmələrlə ifadə olunur» (4, s.58).

Azərbaycan nağıllarında söz köklərində və şəkilçilərdə baş verən müxtəlif səs əvəzlənmələri, yəni hər hansı bir səsin başqa bir səsə keçməsi onları ədəbi dildən fərqləndirən əsas xüsusiyyətlərdən biridir.

Azərbaycan nağılları üzərində apardığımız müşahidələr əsasında aşağıdakı səs əvəzlənmələri qeydə alınmışdır ki, bunları sait və samitlərin əvəzlənməsi üzrə iki qrupda verməyi münasib hesab edirik.

**1. Saitlərin bir-biri ilə əvəzlənməsi**

Azərbaycan dili şivələrində olduğu kimi, nağıllarımızda da müxtəlif saitlərin, yəni qalın saitlərin incə, incə saitlərin qalın, eləcə də dodaqlanan saitlərin dodaqlanmayan, dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə əvəzlənməsi və s. özünü göstərir ki, bunlar əsasən aşağıdakılardan ibarətdir.

a>ə. Qalın a saitinin incə ə saiti ilə əvəzlənməsi Azərbaycan dili şivələrində çox geniş şəkildə yayıldığı halda, nağıllarda az müşahidə edilir: məs.: həcət < hacat, bəsirət < basarat, sərimək < sarımaq, həmlə < hamilə, şəyird < şagird, xeyrət < xeyrat.

Misallar: – Nə qədər elədi, gördü yox, padşahın basaratı bağlanıb (I c., s.163); – Bala, mən sənə həmlə olanda atan dedi ki, əgər qız doğsan səni öldürəcəyəm (I c., s. 190); – Gördü ki, başını səriyib bağlayıblar (I c., s. 199); Dəyirmançı gedib bir az yun aldı, bir də hacat – məcət aldı (I c., s.101); – Buna xeyrat verdilər (II c., s.95).

a saitinin ə saiti ilə əvəzlənməsi Azərbaycan dilinin cənub qrupu şivələri üçün daha səciyyəvidir (3, s.20).

ə>a. Nağıllarımızda incə ə saitinin qalın a saiti ilə əvəzlənməsi a>ə hadisəsinə nisbətən geniş şəkildə müşahidə olunur. Məlum olduğu kimi, qalınlaşma hadisəsi Azərbaycan dilinin qərb qrupu şivələrinə xas olan bir xüsusiyyətdir (5, s.16).

ə saitinin a saiti ilə əvəzlənməsi aşağıdakı sözlərdə müşahidə edilmişdir; məs.: hadağa < hədəqə, haman < həmin, mahna < bəhanə, nobat < növbə, xamır < xəmir, qavır < qəbir, qavırsanlığ < qəbiristanlıq, taxsır < təqsir, yanı < yəni, ələtaş < ələtaş, bafat < vəfat.

Misallar: – Ağa, bunnan hasan şey yoxdu, apar məni sat, həmin pulu əlində maya elə (I c., s. 182); – Əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm (I c., s.202); – Axırda əlqabı mahnası ilə durub bayıra çıxdı (I c., s.218); – Dərə-təpədən aşıb çatdı haman meşənin kənarına (I c., s.240); – Əzqəra bu gecə də padşahın qızının nobatıdı (I c., s.110); – Özözünə dedi ki, yanı bu bağdan ki çıxıb qaçmayacaq (II c., s.43); – Padşahın vəziri bafat elədi (II c., s. 139);

- Havax (nə vaxt) ayağın yerə dəydi, açarsan gözünü (II c., s.115); – Atını minib qavırsanlığa yola düşdü (II c., s.183);
- Sonra üç gün mənim qavrımı qazuyun (II c., s.183); – Dükanın qabağında camaat nobata dururdu (II c., s.150); – Yoxsa heç bir taxsırın yoxdu (II c., s.228); – Evə yetişən kimi o xamır eləyəcək, sənə də təndir yandırtdıracaq (I c., s.12).

i>ı. İncə i saitinin qalın ı saiti ilə əvəzlənməsi bir neçə sözdə sözün ortasında müşahidə edilmişdir; məs.: taxsır < təqsir, qavır < qəbir, qavırsanlığ < qəbiristanlıq, hayıf < heyif, yanı < yəni.

Misallar: – Biri budu ki, mən öləndən sonra üç gün mənim qavrımı qorusun (II c., s.83); – Atını minib qavırsanlığa yola düşdü (II c., s.183); – Heç bir taxsırın yoxdu (II c., s.228); – Özözünə dedi ki, yanı bu bağdan ki çıxıb qaçmayacaqlar (II c., s.43).

i>ü. Dodaqlanmayan incə i saitinin dodaqlanan incə ü saiti ilə əvəzlənməsi nağıllarımızda məhdud şəkildə özünü göstərdiyi halda, Naxçıvan qrupu şivələrində geniş yayılmışdır (4, s.49).



https://doi.org/10.66073/ReFocus-Conf/051118 

Bu hadisə yalnız bir sözdə qeydə alınmışdır: – Qılıncı süyürüb (<siyirmək) elə çaldı ki, atının başı yerə düşdü (I c., s. 19).

ı>i. Qalın ı saitinin incə i saiti ilə əvəzlənməsinə bir neçə sözdə rast gəlinir: – Gördü ki, başını səriyib (< sarıyıb) bağlayıblar (I c., s.199).

Azərbaycan dilinin şərq qrupu şivələrinə xas olan bu hadisə digər şivələrimizdə də özünü göstərir (3, s.40).

### 2. Samitlərin bir-biri ilə əvəzlənməsi

Azərbaycan nağıllarında samitlərin bir-biri ilə əvəzlənməsi hadisəsinə də rast gəlinir. Dialekt və şivələrimizdə olduğu kimi, nağıllarımızda da cingiltili samitlərin cingiltili, cingiltili samitlərin kar, kar samitlərin cingiltili samitlərlə və eləcə də kar samitlərin bir-biri ilə əvəzlənməsi hadisələri özünü göstərir. Nağıllarımızda müşahidə edilən samit əvəzlənmələri əsasən aşağıdakılardır.

q>ğ. Cingiltili q samitinin cingiltili ğ samiti ilə əvəzlənməsi sözün ortasında samitlə sait və ya iki sait arasında müşahidə edilir: çarğat < çarqat, hadağa < hədəqə, şoğərib < şoqərib.

Misallar: – Mənə bir dənə zər-qumaşdan çarğat al (I c., s.151); – Əgər sənin arzuların hadağadan çıxsa, o arzuları mən beləcə əzərəm (I c., s.202); – Şah Abbasın yurdda qalmış şoğərib qızı da camaata belə bəla olub (II c., s.253).

b>v. Cingiltili b samitinin cingiltili v samiti ilə əvəzlənməsinə bir neçə sözdə təsadüf edilir: qavır < qəbir, qavırsanlığ < qəbiristanlıq.

Misallar: – Biri budu ki, mən öləndən sonra üç gün mənim qavrımı qorusun (II c., s.83); – Atını minib qavırsanlığa sürdü (II c., s. 183).

b samitinin v samiti ilə əvəzlənməsi Azərbaycan dili şivələrinin qərb qrupu üçün daha səciyyəvidir (5, s.35).

b>m. Söz əvvəlində cingiltili b samitinin cingiltili m samiti ilə əvəzlənməsi məhdud şəkildə özünü göstərir: mahna < bəhanə.

Misallar: – Axırda əlqabı mahnasilə durub bayıra çıxdı (I c., s.218).

v>b. Cingiltili v samitinin söz əvvəlində cingiltili b samiti ilə əvəzlənməsi bir sözdə qeydə alınmışdır: bafat < vəfat.

Misallar: – Padşahın vəziri bafat elədi (I c., s.139).

v>f. Cingiltili v samitinin kar f samiti ilə əvəzlənməsi söz ortasında saitlə samit arasında qeydə alınmışdır: bənəfşə < bənövşə.

Misallar: – Bığları bənəfşə kimi təzə dit verir (II c., s.225).

h>y. Kar h samitinin y samiti ilə əvəzlənməsi də məhdud şəkildə müşahidə edilir: alahı < alayı.

Misallar: – Bizi bir-birimizdən ayırıb saldılar alayı otaqlara (I c., s.313).

q>x. Cingiltili q samitinin kar x samiti ilə əvəzlənməsi saitlə samit arasında qeydə alınmışdır: taxsır < təqsir.

Misallar: – Heç bir taxsırın yoxdu (II c., s.228).

h>f. Kar h samitinin kar f samiti ilə əvəzlənməsi də bir sözdə qeydə alınmışdır: qəfxana < qəhvəxana.

Misallar: – Bunlar otaqda, qarı nənə də qəfxanada yatdılar (I c., s.114).

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan nağılları. I c., II c. Bakı, 2004.
2. Adilov M. S.Rəhimovun bədii üslubu və «Şamo»nun dili haqqında. «Azərbaycan» jurnalı, 1965, №7.
3. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964.
4. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.